*Azərbaycan Aqrar Elmi* 1 2019 *Аграрная Наука Азербайджана*

**UOT 633/635:631.52**

# İKİNCİ NƏSİL ($F_2$) BUĞDA HİBRİDLƏRİNDƏ VEGETASİYA MÜDDƏTİNİN NƏSİLƏ ÖTÜRÜLMƏSİ

**S.T.HACIYEVA**
**AKTN Əkinçilik Elmi Tədqiqat İnstitutu**

*Məqalədə 2018-ci ildə bərk buğdanın 33 kombinasiya ikinci nəsil ($F_2$) növdaxili hibridlərində vegetasiya müddətinin tədqiqinin nəticələri verilmişdir. Hibrid kombinasiyaların vegetasiya müddətinin valideyin formalarla müqayisəli tədqiqi zamanı ikinci nəsil ($F_2$) hibridlərindən 9-u (27, 3%-i) valideyinlərə nisbətən tezyetişkənliyə malik olmuş və fərq 7 günə qədər təşkil etmişdir.*

***Açar sözlər:*** *seleksiya, bərk buğda, hibrid xətlər, vegetasiya müddəti, valideyin forma*

Bitkilərdə vegetasiya dövrünün uzunluğu mühüm bioloji xüsusiyyətlərdən olub ilk növbədə genotiplərin adaptiv və ekoloji plastikliyini təmin edən əlamətlərdən hesab olunur. Vegetasiya dövrünün uzunluğu təkcə sortların məhsuldarlığını formalaşdıran əsas amillərdən deyil, eyni zamanda o, bitkilərin quraqlığa, xəstəliklərə, zərərvericilərə və digər stres amillərə davamlılığını təmin edən xüsusiyyətlərdən sayılır. Vegetasiya dövrünün uzunluğundan buğdanın ən mühüm göstəricilərindən biri olan dənin keyfiyyət parametrləri də asılıdır.

N.İ. Vavilov [1] 1935-ci ildə yazırdı ki, qısa vegetasiya dövrünə malik olan payızlıq buğda sortlarının becərilməsi bir tərəfdən quraqlığın təsirindən, digər tərəfdən isə rütubətli zonalarda pas xəstəliklərinə sirayətlənmədən qaçmaq üçün uğurla istifadə edilə bilərlər.

Bir çox tədqiqatçılar vegetasiya dövrünün uzunluğunun buğda və arpa bitkisində mühüm əhəmiyyətə malik olmasını göstərmiş və məhsuldarlığın yetişkənliklə əlaqədar olduğunu tədqiqatlarla müəyyən etmişlər [2, 3]

B.İ.Sanduxadzenin fikrincə məhsuldarlığı müəyyən edən, səciyyələndirən xüsusiyyətlərdən biri də bitkilərin vegetasiya müddətinin uzunluğudur. Tədqiqatçı qeyd edir ki, buğda bitkisinin vegetasiyası dövründə inkişaf xüsusiyyətləri haqqında mülahizə məhsuldarlıq haqqında qabaqcadan fikir söyləməyə imkan verir [4].

Ədəbiyyat məlumatlarına və apardığımız tədqiqatlara əsasən belə bir nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında tezyetişkənliyə malik məhsuldar, yüksək keyfiyyətli yeni sortların yaradılmasında əsas üsullardan biri hibridləşmədir.

**Material və metodlar.** Tədqiqatlar zamanı 33 kombinasiya ikinci ($F_2$) nəsil hibridləri Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Abşeron Yardımçı Təcrübə Təsərrüfatında 2017-ci il noyabr ayının 1-də suvarma şəraitində, sələf paxlalı bitkilər olmaqla aparılmışdır. Təcrübə sahəsinə səpin qabağı şum altına hektara 100 kq fiziki çəkidə kompleks gübrə (nitrofoska), erkən yazda kollanma fazasında hektara təsiredici maddə hesabı ilə 90 kq ammonium-nitrat ($NH_4NO_3$) gübrəsi verilmişdir. Vegetasiya müddətində nümunələr boruyaçıxma, sünbülləmə və dənin formalaşması mərhələsində suvarılaraq təcrübə sahəsində bölgə üçün nəzərdə tutulmuş aqrotexniki qulluq işləri həyata keçirilmişdir.

Bitkilər üzərində müşahidələr mövcud metodikaya uyğun olaraq həyata keçirilmişdir [5].

**Tədqiqatın nəticələri və müzakirəsi**. Vegetasiya müddətinin uzunluğu, buğdanın seleksiyasında mühüm əhəmiyyət kəsb edir və sortun bioloji xüsusiyyətlərindən və becərmə şəraitindən, onu əhatə edən ətraf mühit amillərindən asılıdır. Apardığımız tədqiqatlarda valideyn formalarda vegetasiya müddəti 208-215 gün arasında dəyişmişdir. $F_2$ hibridlərində isə bu göstərici orta hesabla 207-216 gün olmuşdur və valideyin formalardan tez və gec yetişkənliyə malik hibrid xətlərdən bəziləri qruplaşdırılaraq cədvəldə verilmişdir (Cədvəl).

Növdaxili ikinci nəsil ($F_2$) hibrid kombinasiyalarının tədqiqi göstərdi ki, hibridlərin 9-u (27, 3%) valideynlərdən 1-7 gün tez, 7-si isə (21, 2%) valideyinlərdən 1-5 gün gec yetişmişlər.

Hibrid populyasiyalardan: v.apulikum, v.hordeiforme x [Tərtər x Mirvari], [Pərinc x Turan] x Mirvari [Fadda 98 x Qarabağ] x Tərtər (Azərbaycan) və s. valideyinlərdən 1-7 gün tez, Bərəkətli 95 x Şirvan 5, Turan x Mirbəşir 50, Bərəkətli 95 x Qaraqılçıq 2 (Azərbaycan), Zatino (Fransa) x Turan (Azərbaycan) və s. valideyinlərdən 1-5 gün gec yetişmişlər.

Cədvəl. İkinci nəsil ($F_2$) buğda hibridlərində vegetasiya müddəti

| S.s | Hibrid kombinasiyası | ♀ | | $F_2$, orta | ♂ | |
|---|---|---|---|---|---|---|
| | | gün | fərq | gün | gün | fərq |
| | **Validevnlərdən tez yetişən ikinci nəsil ($F_2$) hibridləri** | | | | | |
| 1. | [Pərinc x Turan] x Mirvari | 213 | -2 | 211 | 213 | -2 |
| 2. | [Fadda 98 x Qarabağ] x Tərtər | 212 | -1 | 213 | 215 | -2 |
| 3. | [Turan x Zedon-3D-56] x Qaraqılçıq 2 | 211 | -3 | 208 | 209 | -1 |
| 4. | Qaraqılçıq 2 x Bərəkətli 95 | 209 | -2 | 207 | 208 | -1 |
| 5. | v.hordeiforme, v.mursilka x [Tərtər x Mirvari] | 214 | -2 | 212 | 213 | -1 |
| 6. | v.hordeiforme x (Tərtər x Qarabağ) x Qarabağ | 215 | -4 | 211 | 214 | -3 |
| 7. | v.apulikum, v.hordeiforme x [Tərtər x Mirvari] | 214 | -7 | 207 | 213 | -6 |
| 8. | v.apulikum, v.hordeiforme x [Ammar 6 x Zedon-3D-56] | 214 | -6 | 208 | 212 | -4 |
| 9. | v.hordeiforme, v.mursilka x (Tərtər x Qarabağ) | 214 | -6 | 208 | 211 | -3 |
| | **Valideynlərdən gec yetişən ikinci nəsil ($F_2$) hibridləri** | | | | | |
| 1. | Bərəkətli 95 x Şirvan 5 | 208 | +5 | 213 | 209 | +4 |
| 2. | Zatino x Turan | 209 | +2 | 211 | 208 | +3 |
| 3. | Turan x Mirbəşir 50 | 208 | +4 | 212 | 211 | +1 |
| 4. | Bərəkətli 95 x Qaraqılçıq 2 | 208 | +3 | 211 | 209 | +2 |
| 5. | Turan x Şirvan 5 | 211 | +3 | 213 | 209 | +4 |
| 6. | [Giorgio-12-571 x Pərinc] x Qarabağ | 211 | +1 | 212 | 207 | +5 |
| 7. | Qarabağ x Mirbəşir 50 | 211 | +1 | 212 | 208 | +4 |

Ikinci nəsil ($F_2$) hibridlərində aparılan tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, v.apulikum, v.hordeiforme, [Tərtər x Mirvari], (Tərtər x Qarabağ), Mirvari, Tərtər və s. sortnümunələrinin iştirakı ilə alınmış hibridlər daha çox fərqlənmiş və tezyetişkənliyə görə donor kimi istifadə edilməsi tövsiyə edilir.

## ƏDƏBİYYAT

1. Вавилов Н.И. Научные основы селекции пшеницы // М.-Л.; Сельхозгиз, 1935, 244 с. 2.Xuduyev F.A. Bərk buğdanın növdaxili birinci ($F_1$) nəsil hibrid kombinasiyalarında vegetasiya müddətinin öyrənilməsi // Azərbaycan aqrar Elmi, Elmi-nəzəri jurnal, 2-ci cild. 2012 s. 182-184. 3.Novruzlu Q.A. $F_1$-$F_2$ arpa hibridlərində vegetasiya müddətinin nəslə ötürülməsi // Az.ETƏİ-nun Elmi əsərləri məcmuəsi, XXIII cild "Müəllim nəşriyyatı", Bakı- 2012, s.73-76. 4.Сандухадзе Б.И. Результаты изучения короткостебельных образцов озимой пшеницы // Актуальные вопросы сельскохозяйственной науки Научные труды, Тбилиси- 2000, с. 118-122. 5.Musayev Ə.C, Hüseynov H.S, Məmmədov Z.A. Dənli-taxıl bitkilərinin seleksiyası sahəsində tədqiqat işlərinə dair tarla təcrübələrinin metodikası // Bakı- 2008, 87 s.

### Изучение вегетационного периода у гибридов второго поколения ($f_2$) в условиях Абшерона

**С.Т.Гаджиева**

В статье представлены результаты исследования вегетационного периода внутривидовых гибридов второго поколения ($F_2$) из 33 комбинаций твердой пшеницы в 2018 году. Сравнительное изучение вегетационного периода внутривидовых гибридов показали что, 9 (27, 3%) гибридов второго поколения ($F_2$) проявили раноспелость по сравнению радетельскими формами. При этом, разница по созреванию составили до 7 дней.

***Ключевые слова:*** *селекция, твердая пшеница, гибридные линии, вегетационный период, родительская форма*

### The study of vegetation period of second generation ($f_2$) of wheat hybrids in Absheron condition

**S.T.Hajıyeva**

The paper presents the results of the studies on vegetation period of 33 combinations of second generation intraspecific hybrid of durum wheat in 2018. Comparative study of vegetation period of parental forms of intraspecific hybrid combinations has shown that 9 (27, 3%) combinations of $F_2$ hybrids performed themselves early maturing compared to parental forms with difference of 7 days.

**Key words:** soft wheat, durum wheat, hybrid lines, vegetative period, parental forum

**e-mail: sevda_eliyeva89@mail.ru**